IQRO JURNALI , IQRO JOURNAL, ИКРО ЖУРНАЛИ
ISSN:2181-4341| wordlyknowledge.uz/index.php/iqro
Volume 23 Issue 01 AVGUST 2026

İNGİLİS DANIŞIQ ETİKETLƏRİNİN FUNKSİONAL-ÜSLUBİ XÜSUSİYYƏTLƏRİ

Rəşidə Ağayeva
Azərbaycan Dillər Univeristeti
Dosent
aghayevarashida@gmail.com
https://doi.org/10.5281/zenodo.22095097

Xülasə. İngilis dilində danışıq etiketi kommunikativ münasibətlərin qurulması və tənzimlənməsində mühüm rol oynayan sosial-praqmatik və funksional-üslubi vasitələr sistemidir. Salamlaşma, müraciət, təşəkkür, üzrxahlıq, xahiş, kompliment və sağollaşma formulları yalnız ənənəvi nəzakət normalarını ifadə etmir, həm də ünsiyyət iştirakçılarının sosial mövqeyini, qarşılıqlı münasibətini, yaxınlıq və məsafə dərəcəsini, emosional vəziyyətini və kommunikativ niyyətini əks etdirir. Bu vahidlərin funksional yükü onların leksik mənası ilə məhdudlaşmır; konkret situasiya, registr, intonasiya, sosial status, kommunikasiya kanalı və tərəflərin ortaq bilikləri onların praqmatik və üslubi dəyərini formalaşdırır. Gündəlik söhbətdə kontaktın yaradılması və qorunması, telefon danışığında ünsiyyətin başlanğıc və son mərhələlərinin təşkili, media və institusional diskursda isə status, rəsmilik və auditoriyaya münasibətin ifadəsi ön plana keçir. Arxakanal siqnalları dinləyicinin söhbətdə fəal iştirakını və danışanın nitqinə reaksiyasını göstərərək kommunikativ əlaqənin davamlılığını təmin edir. Müraciət formaları və nəzakət markerləri sosial iyerarxiyanı, subordinasiyanı və həmrəyliyi indeksləşdirə bilir. Eyni dil vahidinin müxtəlif situasiyalarda fərqli kommunikativ məna qazanması danışıq etiketinin dinamik xarakterini üzə çıxarır. Bədii dialoq nümunələri də etiket formalarının personajların sosial statusunun, münasibətlər sisteminin və emosional yaxınlığının təqdimində mühüm üslubi vasitə olduğunu göstərir. Müasir qeyri-rəsmi ünsiyyətdə daha qısa və lakonik formalar üstünlük təşkil etdiyi halda, tarixi bədii diskursda status və rəsmilik daha geniş və açıq nəzakət konstruksiyaları ilə ifadə olunur. İngilis danışıq etiketi bu xüsusiyyətləri ilə sosial münasibətləri dil vasitəsilə təşkil edən və diskursun funksional quruluşuna təsir göstərən çevik kommunikativ mexanizm kimi səciyyələnir. Bu funksional müxtəliflik danışıq etiketinin dil sistemində sabit formullar toplusu deyil, sosial və kommunikativ şəraitə uyğun şəkildə dəyişən dinamik vasitə olduğunu təsdiqləyir.

Açar sözlər: danışıq etiketi, funksional üslub, praqmatika, diskurs, nəzakət, müraciət formaları, sosial münasibətlər, registr.

FUNCTIONAL AND STYLISTIC FEATURES OF ENGLISH SPEECH ETIQUETTE

Abstract. English speech etiquette constitutes a system of socio-pragmatic and functional-stylistic means that plays an important role in establishing and regulating communicative relations. Greetings, forms of address, expressions of gratitude, apologies, requests, compliments and leave-taking do more than reflect conventional norms of politeness; they also convey the participants' social position, interpersonal relationship, degree of familiarity or distance, emotional state and communicative intention. Their functional value is not limited to lexical meaning, since their pragmatic and stylistic interpretation is shaped by the particular situation, register, intonation, social status, channel of communication and the interlocutors' shared knowledge. In everyday conversation the establishment and maintenance of contact become especially significant, whereas telephone communication foregrounds the organisation of opening and closing phases. In media and institutional discourse, etiquette forms may

additionally signal status, formality and orientation towards an audience. Backchannel signals contribute to the continuity of interaction by indicating the listener's active involvement and response to the speaker. Forms of address and politeness markers may index social hierarchy, subordination and solidarity. The ability of the same linguistic unit to acquire different communicative meanings in different situations reveals the dynamic nature of speech etiquette. Literary dialogue further demonstrates that etiquette forms function as important stylistic devices for representing characters' social status, interpersonal relations and emotional closeness. While modern informal communication tends to favour shorter and more concise forms, historical literary discourse often expresses status and formality through more elaborate politeness constructions. English speech etiquette may therefore be characterised as a flexible communicative mechanism through which social relations are linguistically organised and the functional structure of discourse is shaped. This functional diversity confirms that speech etiquette is not merely a set of fixed formulae within the language system, but a dynamic means that varies according to social and communicative circumstances.

Keywords: speech etiquette, functional stylistics, pragmatics, discourse, politeness, forms of address, social relations, register.

ФУНКЦИОНАЛЬНО-СТИЛИСТИЧЕСКИЕ ОСОБЕННОСТИ АНГЛИЙСКОГО РЕЧЕВОГО ЭТИКЕТА

Аннотация. Английский речевой этикет представляет собой систему социально-прагматических и функционально-стилистических средств, играющих важную роль в установлении и регулировании коммуникативных отношений. Приветствие, обращение, благодарность, извинение, просьба, комплимент и прощание не ограничиваются выражением традиционных норм вежливости, а передают социальную позицию участников общения, характер их взаимоотношений, степень близости или дистанции, эмоциональное состояние и коммуникативное намерение. Функциональная нагрузка этих единиц не сводится к их лексическому значению, поскольку их прагматическая и стилистическая интерпретация определяется конкретной ситуацией, регистром, интонацией, социальным статусом, каналом коммуникации и общими знаниями собеседников. В повседневном общении на первый план выходят установление и поддержание контакта, в телефонном разговоре - организация начальной и заключительной фаз общения, а в медийном и институциональном дискурсе - выражение статуса, официальности и ориентации на аудиторию. Сигналы обратной связи обеспечивают непрерывность взаимодействия, демонстрируя активное участие слушающего и его реакцию на речь собеседника. Формы обращения и маркеры вежливости способны обозначать социальную иерархию, субординацию и солидарность. Способность одной и той же языковой единицы приобретать различные коммуникативные значения в разных ситуациях свидетельствует о динамическом характере речевого этикета. Художественный диалог также показывает, что этикетные формы служат важным стилистическим средством передачи социального статуса персонажей, системы их взаимоотношений и эмоциональной близости. В современной неофициальной коммуникации преобладают более краткие и лаконичные формы, тогда как в историческом художественном дискурсе статус и официальность нередко выражаются посредством более развёрнутых конструкций вежливости. Английский речевой этикет тем самым выступает гибким коммуникативным механизмом языковой организации социальных отношений и функциональной структуры дискурса. Такое функциональное разнообразие подтверждает, что речевой этикет представляет собой не просто

совокупность устойчивых формул в системе языка, а динамическое средство, изменяющееся в зависимости от социальных и коммуникативных условий.

Ключевые слова: речевой этикет, функциональная стилистика, прагматика, дискурс, вежливость, формы обращения, социальные отношения, регистр.

İngilis dilində danışıq etiketlərinin öyrənilməsi ayrı-ayrı salamlaşma, müraciət, təşəkkür, üzrxahlıq və sağollaşma formullarının sadalanması ilə məhdudlaşdırıla bilməz. Bu vahidlər ünsiyyət prosesində müxtəlif sosial və kommunikativ funksiyalar daşıyır, onların seçimi isə danışıq situasiyasından, iştirakçıların münasibətindən, sosial statusundan, ünsiyyət kanalından və diskursun üslubi xarakterindən asılı olur. Başqa sözlə, eyni etiket vahidinin funksional yükü gündəlik söhbətdə, telefon danışığında, televiziya müsahibəsində və rəsmi ictimai çıxışda eyni olmaya bilər. Danışıq etiketi məhz bu dəyişkənlik daxilində dilin sosial münasibətləri təşkil edən və ünsiyyət iştirakçılarının mövqeyini müəyyənləşdirən vasitələr sisteminə çevrilir.

Dünya dilçilərinin korpus materialına əsaslanan yanaşması dil vahidlərinin funksiyasını onların konkret işlənmə mühitindən ayırmamağın vacibliyini göstərir. *"Biz hər dəfə yazarkən və ya danışarkən çoxsaylı seçimlərlə qarşılaşırıq; bu seçimlər təkcə nə dediyimizlə deyil, onu necə dediyimizlə də bağlıdır"* [3, s. 4]. Bu seçimlərin səbəbləri sırasında kommunikasiya məqsədi, kontekst, iştirakçılar və şifahi, yaxud yazılı nitqin seçilməsi göstərilir. Nitq etiketi baxımından həmin müddəa xüsusi əhəmiyyət daşıyır. *Hello*, *Good morning*, *Hi*, *Excuse me*, *Sorry*, *Thank you* kimi vahidlər semantik cəhətdən müəyyən məna ifadə etsələr də, onların hansı şəraitdə və kimə ünvanlanması ifadənin sosial-üslubi dəyərini müəyyən edir.

Tədqiqatçılar dilin struktur xüsusiyyətləri ilə real istifadəsinin bir-birindən ayrılmamalı olduğunu vurğulayaraq qrammatik və leksik variantların müxtəlif registrlər üzrə qeyri-bərabər paylandığını göstərirlər. Onların təsnifatında söhbət (*conversation*), bədii mətn (*fiction*), xəbər dili (*news*) və akademik nəsr (*academic prose*) əsas registrlər kimi qarşılaşdırılır. Söhbət digər registrlərdən ilk növbədə şifahi və birbaşa interaktiv xarakteri ilə fərqlənir: *"Söhbət digər üç registrdən şifahi, birbaşa interaktiv olması və insan kommunikasiyasının ən əsas forması hesab edilə bilməsi ilə fərqlənir"* [3, s. 16]. Bu xüsusiyyət danışıq etiketi vahidlərinin funksional yükünə də təsir edir. Gündəlik üz-üzə ünsiyyətdə etiket vahidi informasiya ötürməkdən çox kontaktın yaradılması, saxlanılması, tərəflər arasında yaxınlığın və ya məsafənin bildirilməsi kimi funksiyalar daşıya bilir.

Söhbət registrinin başqa bir səciyyəvi xüsusiyyəti onun əvvəlcədən tam planlaşdırılmamasıdır. Linqvistik təsvirdə gündəlik danışıq real zaman daxilində yaranır. Danışanlar söyləmlərini əvvəlcədən redaktə etmir, iştirakçılar bir-birinin reaksiyasına dərhal cavab verir, fikirlər və emosional münasibətlər qarşılıqlı şəkildə formalaşdırılır [3, s.12]. Buna görə danışıq etiketinin şifahi formaları yazılı etiketdən daha çevikdir. Qısa cavablar, təsdiqləyici reaksiyalar, müraciətlər, arxakanal siqnalları, yarımçıq konstruksiyalar və intonasiya danışıq prosesində sosial münasibətin davamlı şəkildə tənzimlənməsinə xidmət edir.

Bu məsələnin konkret praqmatik təzahürlərindən biri dinləyicinin söhbətdə iştirakını göstərən arxakanal siqnallarıdır. P.Yusifova ingilis dilində *wow, no, yeah, no kidding!* kimi reaksiyaların bəzi kommunikativ mühitlərdə dinləyicinin diqqətlə qulaq asdığını göstərdiyini qeyd edir. *Uh-uh, yeah, mmm* kimi səslər də praqmatikada *backchannel signals* adlandırılır [2, s. 14]. Bu vahidlər proposisional baxımdan zəif informativ olsalar da, funksional baxımdan mühüm etiket yükünə malikdirlər. Dinləyici *yeah*, *mmm*, *oh* kimi reaksiyalarla danışana *"səni dinləyirəm", "söhbəti izləyirəm", "davam edə bilərsən"* mesajı ötürür. Burada etiket funksiyası konkret leksik mənadan daha çox qarşılıqlı ünsiyyətin təşkilinə xidmət edir.

Arxakanal vahidlərinin üslubi dəyəri də sabit deyil. Yusifova Deborah Tannenin müşahidələrinə əsaslanaraq Nyu-York və Kaliforniya danışıq davranışı arasında fərq göstərir: *"bir kommunikativ mühitdə wow, no, yeah, no kidding! kimi reaksiyalar fəal dinləmənin*

göstəricisi hesab edildiyi halda, başqa mühitdə eyni reaksiyalar danışanın sözünü kəsmək və söhbətin gedişinə müdaxilə kimi qəbul edilə bilər" [2, s. 14]. Regional kommunikativ ənənə belə eyni etiket davranışının praqmatik qiymətini dəyişdirə bilir.

Müraciətin funksional seçiminə sosial status, rütbə, yaş, ailə əlaqələri, peşə iyerarxiyası və yaxınlıq dərəcəsi də təsir göstərir. P.Yusifova bunları sosial-praqmatik səviyyənin əsas komponentləri sırasında göstərir. Bu səbəbdən danışıq etiketi adresatın kim olduğunu, danışanın həmin şəxsə münasibətini müəyyən qədər indeksləşdirir. Böyük yaşlı insanla, həmkarla, dostla və uşaqla ünsiyyətdə fərqli müraciət modellərinin seçilməsi həmin münasibətin dil vasitəsilə sosial təsnifatıdır. P.Yusifovanın verdiyi *What is little Lilly doing here?* nümunəsində *little* elementi nominativ məlumatı artırmaqdan daha çox əzizləmə və yaxınlıq münasibətini ifadə edir [2, s. 15].

İngilis danışıq etiketlərinin digər mühüm xüsusiyyəti onların nitqin başlanğıcını, davamını və sonunu təşkil etməsidir. Telefon danışığı bu funksiyanı aydın nümayiş etdirir. Telefon söhbəti *"şablonlarla başlayır, davam edir və şablonlarla da yekunlaşır"* [2, s. 16]. Salamlaşma bu strukturun başlanğıc komponentidir. Lakin telefon salamlaşmasının küçədə və ya gündəlik iş mühitində təsadüfi görüş zamanı işlənən salamlaşma ilə eyni funksional quruluşa malik olmadığı vurğulanır. Telefon danışığında salamlaşma sonrakı mövzuya keçidi təmin edən diskursiv açılış rolunu oynayır. Bu mənada salamlaşma həm də diskursun təşkilati vahididir. O, kommunikativ kontaktın başlandığını bildirir, tərəflərin qarşılıqlı iştirakını təsdiq edir və əsas mövzuya keçid üçün sosial zəmin yaradır. Sağollaşma da əks istiqamətdə eyni funksiyanı yerinə yetirir: söhbətin qəfil deyil, tərəflər üçün sosial baxımdan məqbul formada tamamlanmasına xidmət edir. Nitq etiketi bu mövqedə söhbətin onun struktur təşkilinin bir hissəsidir. Danışıq prosesinin daxilində isə növbələşmə və dinləyici reaksiyaları etiket münasibətinin davamlılığını təmin edir. Dinləyiciyə danışmaq imkanı vermək, onun sözünü dinləmək, növbəni uyğun məqamda ötürmək də kommunikativ etiketin funksional tərəfinə daxildir.

Funksional-üslubi dəyişkənlik media diskursunda daha aydın nəzərə çarpır. A.Allahverdiyeva televiziya dilinin müxtəlif janr və üslubları birləşdirən mürəkkəb kommunikativ mühit olduğunu göstərir. Onun təhlilində televiziya dili bir tərəfdən elmi, publisistik və rəsmi-işgüzar üslubların xüsusiyyətlərini daşıyır, digər tərəfdən isə danışıq dilinin *"üslubi çoxfunksiyalılığı"*ndan geniş istifadə edir [1, s. 7-8]. Xəbər, reportaj, müsahibə, aparıcı-qonaq dialoqu və beynəlxalq icmal kimi janrların eyni media məkanında mövcud olması danışıq etiketi vasitələrinin də janra uyğun şəkildə dəyişməsinə səbəb olur.

Televiziya müsahibəsində aparıcının salamlaşması, qonağı təqdim etməsi, müraciət forması, söhbətə keçidi, söz verməsi və söhbəti bağlaması gündəlik dialoqdakı analoji vahidlərlə formal oxşarlığa malik olsa da, onların funksiyası daha mürəkkəbdir. Çünki belə ünsiyyət yalnız aparıcı ilə qonaq arasında baş vermir. Eyni zamanda kütləvi auditoriyaya ünvanlanır. Televiziyada *"hər üç komponent (görüntü-səs-söz) sinxron işləyir"* [1, s. 7]. Buna görə televiziyada etiket ifadəsinin üslubi təsiri intonasiya, pauza, jest, mimika və görüntü ilə birlikdə formalaşır.

Müəllif televiziya nitqinin rəngarəngliyini *"təsvir, səs-küy, musiqi, intonasiya, pauza, ritm"* kimi qeyri-dil situasiyalarının xüsusiyyətləri ilə də əlaqələndirir [1, s. 8]. Məsələn, *Thank you* eyni leksik tərkiblə səmimi təşəkkür, rəsmi bağlanış, dialoqu dayandırmaq siqnalı və ya kontekstdən asılı olaraq məsafəli reaksiya kimi səslənə bilər. Şifahi nitqdə intonasiya və prosodik quruluş etiket formullarının funksional-üslubi şərhinin bir hissəsinə çevrilir.

Televiziya diskursunda rəsmi müraciətin üslubi funksiyası müəllifin gətirdiyi Barak Obama çıxışında aydın görünür: *"My Lord Chancellor, Mr Speaker, Mr Prime Minister, my Lords, and Members of the House of Commons!"* (Lord Kansler, cənab Spiker, cənab Baş nazir, lordlar və İcmalar Palatasının üzvləri!) [1, s. 10]. Burada ardıcıl titul və vəzifə adları sadəcə iştirakçıları identifikasiya etmir. Onlar parlament çıxışının rəsmi protokolunu, institusional iyerarxiyanı və

nitqin yüksək rəsmilik dərəcəsini formalaşdırır. Deməli, müraciət etiketi üslubi registrin tanınmasına xidmət edən marker funksiyası daşıyır.

Danışıq etiketi də həmin kommunikativ məqsədə uyğunlaşır: şəxsi söhbətdə yaxınlıq və qarşılıqlı iştirak, institusional diskursda status və rəsmilik, media ünsiyyətində isə həm tərəflərarası münasibət, həm də auditoriyanın nəzərə alınması ön plana keçir. Bu baxımdan ingilis danışıq etiketlərinin funksional-üslubi təbiətini kontakt yaratma və saxlama, sosial münasibətləri işarələmə, yaxınlıq və məsafəni tənzimləmə, diskursun başlanğıc və sonunu təşkil etmə, dinləyici iştirakını göstərmə, institusional statusu ifadə etmə və konkret registrin üslubi xarakterini formalaşdırma kimi bir-biri ilə əlaqəli funksiyalar daxilində nəzərdən keçirmək mümkündür. İngilis dilinə aid tədqiqatlarda nitq etiketləri normalarını bilmək və onlardan zəruri hallarda düzgün istifadə etmək bacarığının dilin üslubi normaları haqqında biliklərlə yanaşı verilməsi də bu əlaqəni təsdiqləyir [1, s. 19]. Etiket vahidi sosial norma ilə üslubi norma arasında yerləşir: həm düzgün sosial davranışın, həm də konkret kommunikativ şərait üçün uyğun dil seçiminin göstəricisidir.

Danışıq etiketinin funksional xüsusiyyətlərini anlamaq üçün etiket vahidlərinin mənasını hazır və dəyişməz semantik məzmun kimi deyil, konkret qarşılıqlı əlaqədə formalaşan məna kimi nəzərdən keçirmək vacibdir. *"Söhbətdə əhəmiyyət daşıyan məna situativdir. Eyni dil strukturları başqa situasiyalarda və ardıcıl mühitlərdə tamamilə fərqli mənalar daşıya bilər"* [6, s. 2]. Bu müddəa nitq etiketlərinə də aiddir. *Thank you*, *sorry*, *please*, *excuse me* kimi formulların funksiyası yalnız onların lüğəvi mənası ilə müəyyənləşmir; konkret dialoqda onlar təşəkkür, üzrxahlıq, söhbətə müdaxilə, diqqəti cəlb etmə və ya ünsiyyəti yekunlaşdırma funksiyası daşıya bilər.

Müəlliflər mənanın sosial xarakterini də vurğulayaraq göstərirlər ki, qarşılıqlı anlaşma üçün ünsiyyət iştirakçıları fikrə kifayət qədər ortaq məna verməlidirlər. Adresat isə həmin mənanın qurulmasında passiv deyil, birgə iştirak edir [6, s. 2]. Buna görə danışıq etiketi də birtərəfli dil davranışı deyil. Salamlaşmaya cavab, təşəkkürə reaksiya, xahişə münasibət, *yeah, mmm, oh* kimi arxakanal siqnalları etiket münasibətinin dialoq daxilində qarşılıqlı şəkildə qurulduğunu göstərir. Deppermann və De Stefani bunu daha ümumi şəkildə belə ifadə edirlər: "*məna sadəcə mental leksikondan götürülmür, o, qarşılıqlı əlaqənin konkret şəraiti və konteksti üçün yaradılmalıdır*" [6, s. 3].

Danışıq etiketlərinin funksional dəyişkənliyi qrammatik formaların praqmatik funksiyasında da görünür. *Will you + infinitive* strukturunun agentiv fellərlə işlənən sual cümlələrində çox vaxt gələcək niyyət haqqında həqiqi sual deyil, xahiş, təklif və ya dəvət kimi başa düşüldüyü qeyd olunur. *Are you going to have a word with Tom?* forması niyyət sualı, *Will you have a word with Tom?* forması isə asanlıqla xahiş kimi interpretasiya olunan struktur kimi qarşılaşdırılır [5, s. 348]. Bu fakt danışıq etiketində eyni *interrogativ* quruluşun müxtəlif kommunikativ funksiyalar qazana bilməsini göstərir. Üslubi dəyər burada cümlənin formasından çox onun hansı situasiyada və hansı məqsədlə işlənməsi ilə müəyyənləşir.

Danışıq etiketi həmişə səmimi nəzakət forması kimi də reallaşmır. Bəzi situasiyalarda zahirən müsbət və nəzakətli ifadə ironik və ya sarkastik qiymətləndirmə daşıya bilər. E.Camp *"Your plan sounds fantastic"* (Planın möhtəşəm səslənir) nümunəsinin müəyyən kontekstdə söylənilən müsbət qiymətləndirmənin əksinə, planın pis olduğu mənasını ötürə bildiyini göstərir. Müəllifin təbirincə sarkazm "*normativ şkalanı aktivləşdirir*" və danışanın zahirən ifadə etdiyi qiymətləndirmənin inversiyasını yaradır [4, s. 20]. Buna görə zahirən kompliment, təşəkkür və ya razılıq formasında qurulan cümlənin həqiqi funksiyasını müəyyənləşdirmək üçün intonasiya, əvvəlki replika və tərəflərin münasibəti nəzərə alınmalıdır.

Campın təhlili danışıq etiketinin üslubi imkanlarının yalnız formal-qeyri-formal və ya nəzakətli-qeyri-nəzakətli qarşılaşdırması ilə məhdudlaşmadığını göstərir. Sarkastik söyləmdə danışan müəyyən gözləntini ortaq kommunikativ fonda aktivləşdirir, sonra həmin gözləntinin

pozulduğunu dolayı şəkildə göstərir. Camp qeyd edir ki, *"bu zaman danışan tənqidi qiymətləndirməni birbaşa ifadə etmədən onu ortaq kommunikativ fonda daxil edə bilir"* [4, s. 20]. Bu xüsusiyyət, xüsusilə, yaxın münasibətlərdə zarafatlı nəzakət, ironik kompliment və saxta təşəkkür nümunələrinin təhlilində nəzərə alına bilər.

İngilis danışıq etiketlərinin funksional-üslubi xüsusiyyətləri bədii dialoqda daha aydın müşahidə olunur. Bədii mətn personajların sosial statusunu, yaxınlıq dərəcəsini, emosional vəziyyətini və qarşılıqlı münasibətini yalnız müəllif şərhi ilə deyil, onların seçdiyi müraciət, salamlaşma, üzrxahlıq, təşəkkür və xahiş formaları vasitəsilə də təqdim edir. Buna görə etiket vahidinin funksiyasını təcrid olunmuş cümlə daxilində deyil, dialoqun bütöv kommunikativ şəraiti ilə əlaqədə nəzərdən keçirmək lazımdır. T.Lettsin "*August: Osage County"* əsərində Violetlə Johnnanın ilk ünsiyyəti bu baxımdan səciyyəvidir:

Violet: Oh. Hello.
Violet: I'm sorry.
Johnna: Yes, ma'am.
Violet: You're very pretty.
Johnna: Thank you.
Violet: Are you an Indian?
Johnna: Yes, ma'am. [9, s. 6-7].

Dialoqda bir neçə etiket aktı ardıcıl şəkildə birləşir: salamlaşma, üzrxahlıq, kompliment, komplimentin qəbul edilməsi və rəsmi müraciət. Johnnanın *Yes, ma'am* (Bəli, xanım) formasını təkrar işlətməsi tərəflər arasındakı sosial məsafəni qoruyur və onun danışıq davranışına ehtiyatlı-rəsmi çalar verir. Violetin *You're very pretty* (Siz çox gözəlsiniz) komplimentinə *Thank you* (Təşəkkür edirəm) cavabı isə compliment-təşəkkür ardıcıllığının konvensional etiket modelini yaradır.

Lettsin əsərində ailədaxili ünsiyyət etiketin başqa funksional variantını nümayiş etdirir:

Charlie: Pass the casserole, please?
Mattie fae: My casserole's coming.
Charlie: I'll eat some of yours, too – [9, s. 73].

Burada *please* (zəhmət olmasa) ailə daxilində verilən sadə direktivi yumşaldır. *Pass the casserole* məzmun baxımından əmrə yaxın olsa da, *please* və sual intonasiyası onu gündəlik nəzakətli xahişə çevirir. Bu nümunə göstərir ki, etiket vahidləri yaxın münasibətlərdə də sosial rahatlığın və qarşılıqlı davranış normasının qorunmasına xidmət edir. Dialoqun qısalığı, sintaktik sadəliyi və məişət situasiyasına uyğunluğu onun qeyri-rəsmi danışıq registrini müəyyənləşdirir.

Etiket vahidlərinin sosial həmrəylik və qrup identikliyi yaratmaq funksiyası E.Hemingwayin "*For whom the bell tolls"* əsərində daha aydın görünür. Burada salamlaşma tərəflər arasındakı münasibətin işarəsinə çevrilir:

"Salud, Camarada," the guard said to Robert Jordan and put out his hand. "Are you well?"
"Yes," said Robert Jordan. "And thee?"
"Equally," the guard said.
"Hello, Maria," he said to the girl. "You did not tire yourself?" [8, s. 72].

Salud, Camarada (Salam, yoldaş) forması burada adi salamlaşmadan daha geniş sosial məna daşıyır. *Camarada* müraciəti qrup mənsubiyyətini və ideoloji həmrəyliyi ifadə edir; əl sıxma isə verbal etiketi qeyri-verbal davranışla tamamlayır. *Are you well? – And thee?* qarşılıqlı hal-əhval soruşması tərəflərin bir-birini sadəcə məlumat mənbəyi kimi deyil, sosial tərəfdaş kimi qəbul etdiyini göstərir. Mariaya ayrıca *Hello* ilə müraciət olunması da salamlaşmanın iştirakçılar üzrə fərdiləşdirildiyini göstərir. Belə dialoqlarda salamlaşmanın əsas funksiyası yeni informasiya verməkdən çox kontaktı təsdiqləmək və qrup daxilində münasibətləri möhkəmləndirməkdir.

Hemingwayin dialoqlarında üzrxahlıq və xahiş formaları emosional yaxınlıq şəraitində başqa üslubi çalar qazanır:

"Maria: "Sit down, Pilar. Please, please sit down."

Pilar: "All right…"

Pilar: "I am sorry I was rude to thee, guapa. I don't know what has held me today. I have an evil temper."

Maria: "I never mind what you say when you are angry." [8, s. 85-86].

Please, please sit down (Zəhmət olmasa, otur, xahiş edirəm) strukturunda nəzakət formulu sadəcə direktivi yumşaltmır, təkrar vasitəsilə Marianın narahatlığını və təkidini də ifadə edir. Piların *I am sorry I was rude to thee* (Sənə qarşı kobud olduğum üçün üzr istəyirəm) söyləmi münasibətin bərpasına yönəlmiş açıq üzrxahlıq aktıdır. *Guapa* müraciəti isə yaxınlıq və emosional rəğbəti gücləndirir. Marianın cavabı üzrxahlığı qəbul etməklə yanaşı, qarşı tərəfin günahkarlıq hissini də azaldır. Burada danışıq etiketi sosial məsafə yaratmaqdan daha çox emosional münasibəti qoruyan vasitə kimi çıxış edir.

Bədii materiallar nitq etiketinin tarixi-üslubi dəyişkənliyini də müşahidə etməyə imkan verir. H.Melvillein "*Moby-Dick"* əsərində müraciət formaları sosial mövqe və institusional iyerarxiyanı daha açıq göstərir:

"Thou wast, wast thou? I see thou art no Nantucketer - ever been in a stove boat?"

"No, sir, I never have."

"Dost know nothing at all about whaling, I dare say - eh?"

"Nothing, sir; but I have no doubt I shall soon learn" [10, s. 118].

Ishmaelin ardıcıl olaraq *sir* müraciətindən istifadə etməsi onun qarşısındakı şəxsi daha yüksək mövqedə qəbul etdiyini göstərir. Qarşı tərəfin sərt, sorğu xarakterli replikaları ilə Ishmaelin *No, sir*, *Nothing, sir* cavabları arasında yaranan fərq status münasibətini dil səviyyəsində görünən edir. *Sir* burada ümumi nəzakət markerindən çox sosial məsafə və subordinasiyanın üslubi göstəricisidir. Müasir gündəlik ingilis danışığı üçün bu model əvvəlki qədər məhsuldar olmasa da, tarixi bədii diskursda müraciətin status funksiyasını aydın nümayiş etdirir.

Melville başqa bir epizodda sosial nəzakətlə danışıq iqtisadiyyatını qarşılaşdırır:

"Mrs. Hussey: "Clam or cod?"

Ishmael: "What's that about cods, ma'am?"

Mrs. Hussey: "Clam or cod?" [10, s. 111-112].

Ishmaelin *ma'am* müraciəti hörmət və nəzakət bildirir; narrator özü də həmin replikanın *"with much politeness"* (böyük nəzakətlə) söyləndiyini vurğulayır. Mrs. Hussey isə eyni qısa sualı təkrar etməklə ünsiyyəti sırf praktik məqsəddə saxlayır. Burada nəzakətli müraciət forması ilə lakonik xidmət nitqi yanaşı işlənir. Nəticədə sosial nəzakət və funksional iqtisadilik eyni kommunikativ situasiyanın iki fərqli üslubi istiqaməti kimi üzə çıxır.

Tarixi formal danışıq etiketinin daha geniş nümunəsi N.Hawthornun "*The Scarlet Letter"* əsərində görünür. Həkim həssas məsələ haqqında danışmağa başlamazdan əvvəl bir neçə nəzakət vasitəsini ardıcıl şəkildə işlədir: *"Then, to speak more plainly," continued the physician, "and I crave pardon, Sir, - should it seem to require pardon, - for this needful plainness of my speech. Let me ask, - as your friend, - as one having charge, under Providence, of your life and physical well-being, - hath all the operation of this disorder been fairly laid open and recounted to me?"* [10, s. 163]. Burada *I crave pardon, Sir* (Üzr istəyirəm, cənab) mümkün narahatlığı əvvəlcədən yumşaldır, *Let me ask* (İcazə verin soruşum) isə birbaşa sualı daha ehtiyatlı formaya keçirir. *Sir* müraciətinin təkrarı danışığın rəsmi və ehtiramlı tonunu qoruyur. Həkim sual vermək hüququna malik olsa da, mövzunun həssaslığını nəzərə alaraq öz nitqini əvvəlcədən əsaslandırır və adresatın şəxsi sərhədinə müdaxiləni yumşaldır. Bu nümunə nitq etiketinin həssas mövzuya keçidi təşkil edən funksional vasitə olduğunu göstərməklə yanaşı, XIX əsr ingilis bədii dilində

nəzakətin daha geniş və sintaktik cəhətdən mürəkkəb formalarla ifadə olunduğunu da nümayiş etdirir.

Nəticə. İngilis danışıq etiketlərinin funksional-üslubi səciyyəsi etiket formulunun leksik mənasından daha geniş olub onun işləndiyi kommunikativ mühit, sosial məsafə, iştirakçıların statusu və qarşılıqlı münasibəti ilə müəyyənləşir. Salamlaşma, müraciət, xahiş, üzrxahlıq, təşəkkür və sağollaşma vahidləri kontakt yaratmaq və saxlamaqla yanaşı, yaxınlıq və məsafəni tənzimləyir, sosial iyerarxiyanı ifadə edir və dialoqun struktur təşkilində iştirak edir. Bədii materialların müqayisəsi müasir qeyri-rəsmi ünsiyyətdə qısa və lakonik etiket formalarının üstünlük qazandığını, tarixi bədii diskursda isə *sir, ma'am, I crave pardon* kimi formaların status və rəsmilik münasibətini daha açıq şəkildə kodlaşdırdığını göstərir. Eyni etiket vahidinin müxtəlif situasiyalarda fərqli praqmatik və üslubi dəyər qazanması onun funksiyasının kontekst, registr, intonasiya və tərəflərarası münasibətdən asılı olduğunu təsdiqləyir.

Ədəbiyyat

1. Allahverdiyeva A. M. İngilisdilli televiziya mətnlərinin koqnitiv xüsusiyyətləri: filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2014. 24 s.
2. Yusifova P. T. İngilis və Azərbaycan dillərində mədəniyyətlərarası ünsiyyət zamanı örtülü mənanın ifadəsi: filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2024. 36 s.
3. Biber D., Johansson S., Leech G. N., Conrad S., Finegan E. Grammar of Spoken and Written English. Amsterdam; Philadelphia: John Benjamins Publishing Company, 2021. 1258 p.
4. Camp E. Sarcasm, Pretense, and the Semantics/Pragmatics Distinction // Noûs. 2011. No. 1. 48 p.
5. Declerck R., Reed S., Cappelle B. The Grammar of the English Verb Phrase. Vol. 1: The Grammar of the English Tense System: A Comprehensive Analysis. New York: Mouton de Gruyter, 2006. 856 p.
6. Deppermann A., De Stefani E. Meaning in Interaction // Interactional Linguistics. John Benjamins Publishing Company, 2024. 12 p.
7. Hawthorne N. The Scarlet Letter. Illustrated edition. Boston: James R. Osgood and Company, 1878. 323 p.
8. Hemingway E. For Whom the Bell Tolls. New York: Charles Scribner's Sons, 1940. 251 p.
9. Letts T. August: Osage County. New York: The Weinstein Company, 2013. 139 p.
10. Melville H. Moby-Dick; or, The Whale. Vol. I. London; Bombay; Sydney: Constable and Company Ltd, 1922. 394 p.